

Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

26 İYUN 2025-ci il | CÜMƏ AXŞAMI | № 130 (8178) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ


# Dəmir iradəli, rəşadətli, yenilməz ORDUMUZ

## Xalqımızın əzmini, vətənpərvərliyini, birliyini təcəssüm etdirən hərbçilərimiz iftixarımızdır

*Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun ordusunun qüdrəti ilə də ölçülür. Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Bu gün artıq müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik nizami ordusu vardır. Ümummilli Lider Heydər Əliyevin imzaladığı 1998-ci il 22 may tarixli Fərmanla iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü kimi təntənəli qeyd edilir.*

107 il əvvəl yaradılan Azərbaycan Silahlı Qüvvələrinin tarixinə nəzər saldıqda gözümüzün önündə zəngin və şərəfli inkişaf yolu canlanır. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissənin - əlahiddə Azərbaycan korpusunun yaradılması dövlətçilik tariximizin mühüm səhifələrindəndir. Həmin il mayın 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsində qeyd olunurdu ki, "Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır". Bu vəzifəyə uyğun olaraq hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq qarşıya məqsəd qoyulur və avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olunur.

(davamı 4-cü səhifədə)

## 26 iyun
### Silahlı Qüvvələr Günüdür





(əvvəli 1-ci səhifədə)

Milli ordumuz qısa müddətdə öz üzərinə düşən vəzifələri şərəflə və ləyaqətlə yerinə yetirir. Milli ordumuzun Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etməsi, Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda peşəkarlıq nümayiş etdirməsi, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etməsi xüsusi vurğulanmalıdır. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdikdən sonra milli ordu da ləğv olunur, 15 azərbaycanlı general Nargin adasında güllələnir.

Ölkəmizdə dövlətin və dövlətçiliyin əsas sütununu təşkil edən güclü ordu quruculuğu Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1969-cu ildə respublika rəhbərliyinə gəldikdən sonra Ulu Öndər hərbi sahədə strateji yanaşmanı formalaşdıraraq milli kadr potensialının əsasını qoydu. Bu istiqamətdə 1971-ci ildə Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyin yaradılması mühüm dönüş nöqtəsi oldu. Hərbi təhsil müəssisəsi milli zabit kadrların formalaşmasında mühüm rol oynadı və gələcəkdə Silahlı Qüvvələrimizin peşəkar heyətinin formalaşmasının bünövrəsini təşkil etdi. SSRİ dövründə azərbaycanlı gənclərin hərbi ali məktəblərə, xüsusilə də Bakı Ali Birləşmiş Komandanlıq və Hərbi Dənizçilik məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına şərait yaradılması da məhz Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsi idi. Bu, Azərbaycanda hərb sənətinə marağı artırmaqla yanaşı, gələcək müstəqil dövlətin ordu bazasının formalaşmasına yönəlmiş strateji addım idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: "Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik. Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir".



1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkə ciddi təhlükələrlə qarşı-qarşıya qaldı. Ermənistanın işğalçılıq siyasəti, daxili siyasi xaos və idarəolunmaz silahlı dəstələrin mövcudluğu səbəbindən dövlət müstəqilliyi sual altına düşmüşdü. Bu çətin vəziyyətdə xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ilk növbədə silahlı dəstələri ləğv etdi və nizami ordu quruculuğu istiqamətində qətiyyətli addımlar atdı. 1994-cü ildə cəbhədə atəşkəs müqaviləsinin imzalanması ilə ordu quruculuğunda yeni mərhələ başlandı. Bu mərhələdə maddi-texniki təminatın gücləndirilməsi, hərbi hissələrin döyüş hazırlığının artırılması, mənəvi-psixoloji durumun möhkəmləndirilməsi və beynəlxalq əməkdaşlıq sahəsində ciddi addımlar atıldı.

Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla həyata keçirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində milli ordumuz davamlı olaraq inkişaf edir. Silahlı Qüvvələrimiz dünyanın ən müasir silah-sursatları, hərbi-texnoloji avadanlıqları ilə təmin olunub, şəxsi heyətin döyüş ruhu dəfələrlə yüksəldilib. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: "Ulu Öndərimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə həyata keçirdiyi tədbirlər, hazırladığı siyasi sənədlər təkcə Naxçıvanın yox, eyni zamanda, doğma Azərbaycanımızın da xilasına xidmət edirdi. Üçrəngli dövlət bayrağının, digər milli dövlətçilik atributlarının qəbul edilməsi, milli ordu quruculuğuna başlanılması, aqrar islahatların həyata keçirilməsi - ömrünün Naxçıvanda keçən 3 ili ərzində görülən bütün bu tədbirlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəlmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi". Vətən müharibəsinə kimi ötən müddətdə ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər görüldü, Silahlı Qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranması reallaşdırıldı.

Uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimiz Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik qətiyyətinin məntiqi nəticəsi idi. 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycanın zəfəri ilə dünyaya səs saldı. Xalqımız məğrur, yenilməz xalq kimi, ordumuz isə dünyanın ən güclü, peşəkar ordusu kimi tarix yazdı. Azərbaycanın döyüş meydanında və diplomatik müstəvidə qazandığı uğurlar tarixi zəfərimizi şərtləndirdi. Qeyd etmək lazımdır ki, bu tarixi zəfərimizə qədər ordumuz 3 dəfə Ermənistan ordusuna ağır zərbələr vurmuşdu. 2016-cı ilin Aprel döyüşləri tarixi Qələbəmizin başlanğıcı oldu. O döyüşlərdə düşmən ağır itki verərək, silah-sursatını atıb qaçdı. Həmin döyüşlərdə 25 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımızın 2 min hektarı, o cümlədən bir sıra strateji yüksəkliklər azad edildi. 2018-ci il may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. İki il sonra - 2020-ci il iyul ayında Ermənistan ordusu yenidən təxribatlara əl atdı və Tovuz rayonu istiqamətində atəşkəsi pozdu. Bu dəfə də düşmən layiqli cavab aldı. Tovuz döyüşləri də Azərbaycanın hərb tarixinə xüsusi olaraq daxil oldu və şanlı zəfərimizə əsas təkan verən hadisə oldu. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz işğal altında olan ərazilərimizin azad olunması üçün geniş hərbi əməliyyatlara başladı və 44 gün ərzində düşməni diz çökdürərək darmadağın etdi, ərazi bütövlüyümüz, tarixi ədalət bərpa olundu, eləcə də lokal xarakterli uğurlu antiterror tədbirləri nəticəsində Azərbaycan beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində öz suverenliyini tam bərpa etdi. Vətən müharibəsi silahlı qüvvələrimizin nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi. Bu savaş, eyni zamanda XXI əsrin ən sürətli, müasir və ədalətli müharibəsi kimi yaddaşlara həkk olundu.

Azərbaycanda müasir ordu quruculuğu davam edir və yeni mərhələdə silahlı qüvvələrimiz Türkiyə modelinə uyğunlaşdırılır. Ötən il fevralın 19-da Türkiyəyə rəsmi səfəri çərçivəsində mətbuata bəyanatı zamanı dövlətimizin başçısı bildirib ki, əməkdaşlığımızın önəmli istiqamətlərindən biri hərbi sahədə işbirliyidir: "Bizim ordularımız bir yumruq anlamına gəlib, hər il ən azı 10 hərbi təlim həm Türkiyədə, həm Azərbaycanda keçirilir və beləliklə, bizim hərbi gücümüz daha da artır. İkinci Qarabağ savaşı və ondan sonra, düz 5 ay əvvəl keçirdiyimiz antiterror əməliyyatı bir daha onu göstərdi ki, Türkiyənin Ordu modeli Azərbaycanda artıq tam oturuşub". Bu istiqamətdə xeyli işlər görülüb. Xüsusi olaraq dağ komanda birlikləri, hərbi hissələr yaradılıb. Eyni zamanda, xüsusi təyinatlılarımızın sayının artırılması istiqamətində də mühüm addımlar atılıb. Bundan başqa, Azərbaycan ordusunun tərkibində "Komando" birliklərinin yaradılması da Türkiyə təcrübəsinin nümunəsidir.



Azərbaycan mühüm geosiyasi regionda yerləşir. Ona görə də ordu quruculuğu daim diqqət mərkəzindədir. Yeni müqavilələr əsasında Azərbaycan Ordusunun təchizatı üçün respublikaya ən müasir silah-texnika gətirilir. İşğaldan azad olunan ərazilərimizdə yeni hərbi hissələr, hərbi şəhərciklər salınır. Ordunun silahlanmasında daha çox təmassız müharibə vasitələrinin və idarəolunan sursatların tətbiqi genişləndirilir. Ordunun gücü, döyüş qabiliyyəti həm də döyüş texnikaları ilə, silah-sursatla bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı Sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin etdi. Qısa müddətdə silah, hərbi sursat istehsalına başlanıldı. Nazirliyin istehsal etdiyi məhsulların 80 faizdən çoxu müdafiə təyinatlıdır. Nazirliyin balansında olan zavodlarda təmir, yenidənqurma işləri aparıldı, bu müəssisələr indi ordumuzun inventarında olan hərbi texnikaların təmirini, ən müasir şəkildə modernləşdirilməsini həyata keçirir. Mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur.

"Mən artıq bunu demişəm, bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı bir milyard manat investisiya qoyulacaq. Yəni, biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Yəni, biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik". Bu fikirləri Prezident İlham Əliyev ötən il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində deyib. Azərbaycan Ordusu daha da peşəkarlaşır, təkmilləşir və hər an istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Silahlı Qüvvələrimiz qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrilib. Ordumuzun qüdrətinin daha da artırılması üçün dövlətimiz tərəfindən zəruri addımlar atılır. Ali Baş Komandanın göstərişinə əsasən, müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və bir sıra digər tədbirlər Azərbaycan Ordusunun Ermənistan ordusu üzərində üstünlüyünün qorunub saxlanmasını təmin edir. Müzəffər sərkərdənin Azərbaycan Ordusu qarşısında qoyduğu yeni tapşırıqlara əsasən, modernləşmə, silahlanma və hazırlıq sahələrində ordunun ən yüksək göstəricilərə sahib olması üçün konkret planlar, tədbirlər hazırlanıb. Ordu komandanlığı isə verilən tapşırıqların təxirəsalınmaz icrasını reallaşdırmaqdadır. Bununla yanaşı, hazırda bir çox hərbi hissələrimiz azad edilmiş ərazilərimizə dislokasiya edilir və ya həmin ərazilərdə yeni hərbi hissələr, şəhərciklər salınır. Dislokasiya olunan bölmələrimizdə qoşun xidmətinin təşkili, şəxsi heyətin döyüş hazırlığının və döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, yeni hərbi infrastruktur obyektlərinin yaradılması, bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin yaxşılaşdırılması, döyüş planlarının dəqiqləşdirilməsi, maddi-texniki, tibbi təminatın davamlı yüksəldilməsi, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi gündəlik fəaliyyətin əsas prioritetlərindəndir.

Beləliklə, həyata keçirilən uğurlu proseslər, eləcə də müasir texnologiyaların tətbiqi ilə qoşunlarda yaradılan avtomatlaşdırılmış komanda idarəetmə məntəqələri Silahlı Qüvvələrin bütün qoşun növlərinin dayanıqlı, operativ və fasiləsiz idarə olunmasına imkan yaradıb. Hərbi hissələrin, əsasən də sərhəd xəttindəki bölmələrin yeni növ silah, döyüş texnikası və digər hərbi vasitələrlə təchiz edilməsi, raket və artilleriya qoşunlarının arsenalında olan müasir raket kompleksləri və atəşi idarəetmə sistemləri qoşunların döyüş qabiliyyətini xeyli yüksəldərək düşmənin canlı qüvvəsini, döyüş texnikasını və hərbi infrastrukturunu məhv etmək imkanlarını genişləndirib. Bu gün Böyük Qayıdış konsepsiyasına uyğun olaraq keçmiş qaçqın və məcburi köçkünlər öz ata-baba yurdlarına geri dönürlər. Onların burada əbədi, xoşbəxt, təhlükəsiz şəraitdə yaşamasına, sərhədlərimizin toxunulmazlığına güclü Azərbaycan dövləti, Müzəffər Ali Baş Komandan və Onun rəhbərliyi ilə formalaşmış qalib Ordumuz tam təminat verir.

**Mustafa KAMAL,**
**"Respublika".**